

Kəmalə ABİYEVA

# BU NECƏ PAYIZDI?

İllərdi belə payız yaşamadıq. Yaz havalı payız görmədik. İllərdi ağrıdan başqa havası olmadı bu torpağın. Çiçəklərin kədərdən başqa rəngi olmadı. Yüz illərdi... İllərin yayı, yazı, qışı, payızı bir-birinə qarışıb nə vaxtdı. Yüz illərdi yağış yağır bu yurda. Ürəklərimizə qar yağır, duyğularımız donur. İllərdi yaralıdı bu torpaq. Araz yanğılı, Göyçə ağrılıdı bu yurd.

Sosial şəbəkədə görüntüləri paylaşılan Məbudu xatırlayıram. Məbud yaralıdı. Həkim yaralarını sarıyır. O isə oxuyur: "Anadır arzulara hər zaman Qarabağ..."

Hiss etdiklərim gözümün yaşına qarışır. Möhtəşəmlik də kövrəldir.

İllərdi "Bir az bənövşə kimi kol dibində qalmışam. Bir az İrəvan kimi boynubükük olmuşam". "İtən bir iz kimiyəm, axtarıb tapmaq olmur. Bir az Təbriz kimiyəm, gedirsən, çatmaq olmur" – nə vaxtdı. Bir də Xocalı kimi yanmaq var.

"Danışan dil-dodağım, tar-kaman Qarabağ" – Konservatoriyanın məzunu yaralı Məbudsa oxuyur. Dünyada belə gözəl yaralı yoxdu. Vətən yaralarını sarıyan Məbudun yaralarını sarıyan həkim "Oğulsan, halaldı sənə, öpdüm səni" deyib onu əzizləyir.

Nə vaxtdı ürəyi kimi yolları da çat-çat olan bu Vətən torpağı üçün oxuyur. Səsindəki inam qürur yaşadır.

İllər ümidsizlikdən asılmışdı, sadəcə. İnamım yoxdu. "Niyə"si yüz illərdən gələn cavabsızlıqdı.

Bu cavab uğrunda nə qədər şəhid verib bu torpaq. Şəhidlərim bu torpağa canından can verib – Vətəni yaşadıb. Yaralarına qanını məlhəm edə-edə yaşadıb.

İllərdi ruhları narahat Şəhidlərim sevindi, yəqin. Rahatlıq tapdılar. Qürur dolu, ağrılı, göz yaşları ilə yola saldığımız şəhidlərimizə sarıldılar. Elə bilirəm, hamısı gülümsəyir. Yenidən doğulur.

Siz Vətən qarşısında borcunuzdan çıxdınız. Biz isə nəsil-nəsil sizə borclu qalacağıq.

İgidlərim! Müzəffərlərim! Bu torpağa Vətən sevinci yaşadanlarım. Tariximə zəfər tarixi yazanlarım.

Nə desək, azdı. Nə etsək, azdı. Sözə, gözə, ürəyə sığmayanlarım. Vətənin azad etmək üçün canını qurban edənlərim. Vətən görsün deyə, gözlərini verənlərim. Bu gecə də sizi düşünürdüm hər kəs kimi.Vətənin ayaqlarını sağaltmaq üçün ayaqlarını verən polad kimi Poladları, qollarına qolunu fəda edən Sahilləri , ürəyinin qəlpələrini ürəyinə yığan Elçinləri, əsir Bayramları, Aminləri, itkinləri... Bunu yaşamaq ağırdır. Çox ağırdır. Ürək istər, baş istər. Bütün bunları yaşamaq mümkünsüz... Bu ağrının içində bir həqiqətə sığınırsan: “Qarabağ Azərbaycandır!”.

Qəfil yağan yağışın səsi gəldi. Yağış da oxuyurdu elə bil Məbud kimi: “Qarabağ, can Qarabağ, Qarabağ... Qarabağ...”

Bu səslər qarışığında bu gün hamımızın özlədiyi səsi eşidirdim: “Qarabağ Azərbaycandır və nida!”



İllərlə həsrət qaldığımız qələbə yazan Ali Baş Komandan, cənab Prezidentimiz İlham Əliyev! O qalxan yumruğunuz bizə yumruq olmağın böyüklüyünü yaşatdı və yaşadır. O qədər paralanıb, o qədər yaralanıb ki bu torpaq – Azərbaycan dediyimiz bu Vətən. Tarixin səhifələrində elə acılar var ki!.. Amma bu gün hər dəfə “Yaşasın Azərbaycan ordusu!” dediyiniz, igidlərlə yazdığınız səhifələr olmayıb.

Bizə möcüzə yaşatdınız, qürur yaşatdınız.

Heç belə payız yaşamadıq. Yaz havalı, Qələbə ətirli payız.

Hər qarışla, hər kəndlə yenidən doğulur şəhidlərimiz.

Hər şəhidlə bütövləşir Azərbaycan.

Nə deyim? Bu günləri görəcəyimə inanmırdım. O qara siyahı qara günümə dönmüşdü. Daha şagird gündəliklərində o qara tarixlər olmayacaq.

Zəfər, necə möhtəşəmsən!

Bayram günlərimiz var indi – həsrət qaldığımız qələbə günləri!

Dünyanın ən gözəl şəhidinin nurlu simasından Vətənə nur səpilir. İllər boyu hər daşda, hər qarışda, güldə, hər ürəkdə səslənəcək Xudayarın “Şair, sorma nədən Vətən yaxşıdı” səsinə qarışırdı dünyanın ən gözəl yaralısının səsi: "Ana yurdum, ana yurdum, ana yurdum..."

Ana yurdum – Azərbaycan! İlahi, necə gözəldi belə demək. Necə gözəldi!.. Xoşbəxtliyin necə olduğunu bildim. Xoşbəxtliyi gördüm. Demə, belə olurmuş. İlahi, nə gözəldi Vətəni bütöv olmaq, ona can vermək, onu bütöv sevmək. Bayraq olub Xankəndində dalğalanmaq istəyirəm. Hayqırmaq, pıçıldamaq istəyirəm:

Sən uğrunda öləcəyim,
sən uğrunda yaşadığım varlığımsan,
Ana Vətən!
Səni bütöv sevirəm mən.
İlk sevgilim deyilsən sən,
SON SEVGİMSƏN!